# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ1122 Bakı şəhəri,
H.Zərdabi küç, 96

Tel: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçt: office@isim.az http://www.isim.az


"____"__________2015-ci il                                        №__________

## ƏMR № 83

**Bakı şəhəri**                                        **10 aprel 2015-ci il**

**"Məişət zorakılığının qarşısının alınması üzrə" Səhiyyə Nazirliyinin Tədbirlər Planının icrası məqsədi ilə görüş və mühazirələrin təşkili barədə"**

Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli 537 nömrəli Fərmanının 1.2.4-cü, 1.2.8-ci və 1.3.3-cü bəndlərinə əsasən Səhiyyə Nazirliyinin Tədbirlər Planının aidiyyəti bəndlərinin icrasının təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Məişət zorakılığının qarşısının alınması üzrə" Səhiyyə Nazirliyinin Tədbirlər Planının 1.3.3-cü bəndinin 1-ci hissəsinə uyğun olaraq 2015-ci ilin sonunadək:

1.1. Əhali arasında (ictimai yerlərdə, təhsil ocaqlarında və s.) məişət zorakılığının mənfi tibbi-psixoloji nəticələrinin izah edilməsinə, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş qabaqlayıcı maarifləndirmə tədbirləri (görüşlər, təşviqat kampaniyaları) kimi Bakı şəhərindəki 15 ali və orta təhsil müəssisəsində tələbə/şagird heyəti ilə həkim-mütəxəssislərin görüşləri və mühazirələr təşkil edilsin

2. Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planı təsdiq edilsin (Əlavə).

3. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planına uyğun xərclərin smetası tərtib edilsin və həmin smeta üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.

4. Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadəyə tapşırılsın ki, təşkili və keçirilməsinə nəzarət edilməklə Əmrin 1-ci bəndində qeyd olunan hər bir görüş və mühazirə barədə mütəmadi olaraq məlumat verilsin.

5. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor**                                        **Ceyhun Məmmədov**

**İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Ceyhun Məmmədova**

# MƏLUMAT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 15.02.2012-ci il tarixli 13 nömrəli əmri ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması üzrə" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planın 1.3.3.1-ci "Əhali arasında (ictimai yerlərdə, təhsil ocaqlarında və s.) məişət zorakılığının mənfi tibbi-psixoloji nəticələrinin izah edilməsinə, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş qabaqlayıcı maarifləndirmə tədbirləri (görüşlər, təşviqat kampaniyaları) keçirmək" bəndinin icrasını təmin etmək məqsədi ilə 2015-ci ilin sonunadək 15 məktəbdə maarifləndirmə mühazirələrinin aparılması nəzərdə tutulur.

Məktəblərin siyahısı və tədbirlərlə bağlı xidmətlər barədə cədvəl əlavə edilir (qoşma 1 vərəq).

Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri — Səbinə Babazadə

16.03.2015

| **Cədvəl** | |
|---|---|
| təşkilatçı | Səbinə Babazadə |
| təlimçilər | Mehriban Məmmədova<br>Nərmin Novruzova |
| dizayner | Ramiz Qəmbərov |
| administrativ xərclər | |
| Nəqliyyat xərcləri | |
| fotoxidmət | 1 nəfər |

| № | Məktəb, lisey, universitet | Təlimçilərin adı/<br>Əhatə edilən dövr |
|---|---|---|
| 1. | 135 saylı tam orta məktəb | Mehriban Məmmədova<br>Nərmin Novruzova<br><br>Mart-may aylarında |
| 2. | 115 saylı tam orta məktəb | |
| 3. | 248 saylı tam orta məktəb | |
| 4. | 143 saylı tam orta məktəb | |
| 5. | 1 saylı internat | |
| 6. | 100 saylı tam orta məktəb | |
| 7. | 126 saylı tam orta məktəb | |
| 8. | 244 saylı tam orta məktəb | Sentyabr-dekabr aylarında |
| 9. | 283 saylı tam orta məktəb | |
| 10. | 276 saylı tam orta məktəb | |
| 11. | Bakı Humanitar Kolleci | |
| 12. | 284 saylı tam orta məktəb | |
| 13. | 144 saylı tam orta məktəb | |
| 14. | 157 saylı tam orta məktəb | |
| 15. | 83 saylı məktəb-lisey | |